**Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2023-cü il 24 iyun tarixli 182-VI FR nömrəli Fərmanı ilə təsdiq edilmişdir.**

## Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi haqqında

## Ə S A S N A M Ə

### 1. ÜMUMİ MÜDDƏALAR

1.1. Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Tikintidə Təhlükəsizliyə Nəzarət İdarəsi (bundan sonra – İdarə) Naxçıvan Muxtar Respublikasının ərazisində (bundan sonra – ərazi) qanunvericiliklə müəyyən edilmiş qaydada tikinti fəaliyyətində təhlükəsizlik tələbləri ilə bağlı dövlət siyasətinin hazırlanmasında iştirak edən, bu siyasətin həyata keçirilməsini təmin edən və həmin sahədə dövlət nəzarətini həyata keçirən qurumdur.

1.2. İdarə öz fəaliyyətində Azərbaycan Respublikasının və Naxçıvan Muxtar Respublikasının konstitusiyalarını və qanunlarını, Azərbaycan Respublikası Prezidentinin və Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin fərman və sərəncamlarını, Azərbaycan Respublikası Nazirlər Kabinetinin və Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin qərar və sərəncamlarını, Naxçıvan Muxtar Respublikasının Fövqəladə Hallar Nazirliyi haqqında Əsasnaməni, bu Əsasnaməni və Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin (bundan sonra - Nazirlik) əmr və göstərişlərini rəhbər tutur.

1.3. İdarə öz vəzifələrini yerinə yetirərkən və hüquqlarını həyata keçirərkən Nazirliyin tabeliyində olan struktur bölmələri, digər icra hakimiyyəti və yerli özünüidarəetmə orqanları, qeyri-hökumət təşkilatları ilə qarşılıqlı əlaqədə fəaliyyət göstərir.

1.4. İdarə müstəqil balansa, qanunvericiliyə uyğun sərəncamında olan dövlət əmlakına, xəzinə və bank hesablarına, üzərində Azərbaycan Respublikasının Dövlət gerbinin təsviri və öz adı həkk olunmuş möhürə, müvafiq ştamplara və blanklara malikdir.

1.5. İdarənin saxlanma xərcləri və fəaliyyəti Nazirliyə ayrılmış Naxçıvan Muxtar Respublikasının büdcə vəsaitləri və qanunvericiliklə nəzərdə tutulan digər mənbələr hesabına maliyyələşdirilir.

1.6. İdarə Naxçıvan şəhərində yerləşir.

### 2. İDARƏNİN FƏALİYYƏT İSTİQAMƏTLƏRİ

2.0. İdarənin fəaliyyət istiqamətləri aşağıdakılardır:

2.0.1. öz səlahiyyətləri daxilində tikinti fəaliyyətində təhlükəsizlik tələbləri ilə bağlı dövlət siyasətinin hazırlanmasında iştirak edir, bu siyasətin həyata keçirilməsini təmin edir və tikinti,

əsaslı təmir, yenidənqurma, bərpa və söküntü işlərinə (bundan sonra – tikintiyə) dövlət nəzarətini həyata keçirir;

2.0.2. öz səlahiyyətləri daxilində mühəndis-axtarış, layihələndirmə və ekspertiza işlərinin əlaqələndirilməsini, smeta-normativ və qiymətqoyma üzrə monitorinqlərin aparılmasını təmin edir;

2.0.3. İdarənin fəaliyyət dairəsinə aid edilən sahələrin inkişafını təmin edir;

2.0.4. İdarə qanunvericiliklə onun səlahiyyətlərinə aid olan digər istiqamətlərdə də fəaliyyət göstərir.

## 3. İDARƏNİN VƏZİFƏLƏRİ

3.0. İdarə bu Əsasnamə ilə müəyyən edilmiş fəaliyyət istiqamətlərinə uyğun olaraq aşağıdakı vəzifələri yerinə yetirir:

3.0.1. Nazirliyin müvafiq qurumları ilə birlikdə aşağıda göstərilən məsələlərlə bağlı sənədlərin layihələrini işləyib hazırlamaq və Nazirliyə təqdim etmək:

3.0.2. tikintidə təhlükəsizliyin təmin olunması sahələrində dövlət siyasətinin formalaşdırılması və həyata keçirilməsi üzrə təkliflərini;

3.0.3. öz səlahiyyətləri daxilində mühəndis-axtarış, layihələndirmə və ekspertiza işlərinin əlaqələndirilməsi ilə bağlı təkliflərini;

3.0.4. İdarənin struktur bölmələri barədə əsasnamələrin layihələrini;

3.0.5. İdarənin fəaliyyəti ilə bağlı qanunvericiliklə müəyyən edilmiş digər normativ hüquqi və normativ xarakterli aktların layihələrini.

3.0.6. Nazirliyin aidiyyəti qurumları və Naxçıvan Muxtar Respublikasının müvafiq icra hakimiyyəti orqanları ilə birlikdə:

3.0.6.1. əhalinin, bina və qurğuların fövqəladə hallardan müdafiəsi nöqteyi-nəzərindən ərazidə şəhərsalma sənədlərinin, baş və müfəssəl planlarının layihələrinə rəy vermək;

3.0.6.2. ərazilərin, bina və qurğuların təbii fəlakətlərdən müdafiəsi, onların möhkəmliyinin və dayanıqlılığının təmin edilməsi üzrə şəhərsalma və tikintiyə dair normativ sənədlərin tətbiqinə nəzarət etmək;

3.0.6.3. mühəndis-axtarış, layihələndirmə və ekspertiza işlərinin əlaqələndirilməsini və onların yerinə yetirilməsi ilə bağlı fiziki və hüquqi şəxslərə maarifləndirici və metodiki köməkliyin göstərilməsini təmin etmək;

3.0.6.4. ərazidə tikinti resurslarının cari qiymətlərinin monitorinqinin aparılmasını və monitorinqin nəticələrini aidiyyəti üzrə təqdim olunmasını təmin etmək;

3.0.6.5. ərazidə inşa edilən və qanunvericiliyin tələblərinə əsasən layihə sənədlərinin ekspertizadan keçirilməsi tələb olunan tikinti obyektlərinin, dövlət vəsaiti hesabına inşa olunan bütün tikinti obyektlərinin tikinti layihələrinin müvafiq qaydada ekspertizadan keçirilməsini təşkil etmək;

3.0.6.6. mühəndis-axtarış işi sahəsində vahid texniki tənzimlənməni həyata keçirmək, tikinti işlərinin layihələndirilməsi prosesində qanunvericiliklə müəyyən edilmiş hallarda mühəndis-axtarış işləri üzrə materialların və hesabat xarakterli məlumatların toplanmasını, öyrənilməsini, rəy verilməsini təşkil etmək, onlardan müvafiq norma və standartlara uyğun istifadəyə öz səlahiyyətləri daxilində nəzarət etmək;

3.0.7. tikintiyə dövlət nəzarəti çərçivəsində aşağıdakı işləri yerinə yetirmək:

3.0.8. layihələri müəyyən olunmuş qaydada işlənilmiş, tələb olunduğu hallarda ekspertizadan keçirilmiş obyektlərin uçotunu aparmaq, şəhərsalma və tikintiyə dair normativ sənədlərdə nəzərdə tutulmuş tələbləri yerinə yetirməklə tikinti-quraşdırma işlərinin başlanmasına nəzarət etmək;

3.0.9. hər bir mərhələdə yerinə yetirilən tikinti-quraşdırma işlərinin təsdiq olunmuş layihələrə, şəhərsalma və tikintiyə dair normativ sənədlərə uyğunluğuna nəzarət etmək;

3.0.10. tikintidə istifadə olunan tikinti materiallarının, konstruksiyalarının və avadanlıqlarının müvafiq sertifikatlarının olmasını, onların dövlət standartlarının tələblərinə cavab verməsini, müəyyən olunmuş qaydada istifadədən əvvəl sınaqdan və texniki təhlükəsizlik ekspertizasından keçirilməsini yoxlamaq;

3.0.11. tikintidə sifarişçi tərəfindən texniki nəzarətin, layihəçi tərəfindən müəllif nəzarətinin, podratçı tərəfindən daxili əməliyyat nəzarətinin müəyyən olunmuş qaydalara uyğun olaraq aparılmasına nəzarət etmək;

3.0.12. tikinti və tikinti ətrafı ərazilərdə müəyyən olunmuş təhlükəsizlik tələblərinə əməl olunmasına nəzarət etmək;

3.0.13. qanunvericiliyin, şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələbləri pozulmaqla aparılan tikinti işlərinin dayandırılmasını təmin etmək;

3.0.14. qanunvericiliyin, şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələbləri pozulmaqla qanunsuz inşa olunmuş tikinti obyektlərinin sökülməsini təmin etmək;

3.0.15. qanunvericiliyin, şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələbləri pozulmaqla həyata keçirilən tikintilərdə hüquqi və fiziki şəxslərə qarşı qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.0.16. tikintisi başa çatmış və tikintiyə dövlət nəzarəti müvafiq qaydada həyata keçirilmiş obyektlərə dair istismara hazırlıq aktını tərtib etmək.

3.0.17. tikinti obyektlərinin istismarına icazələrin verilməsi qaydasına riayət edilməsinə müvafiq dövlət orqanları ilə birlikdə nəzarət etmək;

3.0.18. tikilən və istismarda olan bina və qurğularda qəzaların baş verməsi səbəblərini araşdırmaq, qəza-bərpa işlərini əlaqələndirmək;

3.0.19. daşqın və subasma zonalarını müəyyənləşdirməsində iştirak etmək, sahilbərkitmə işlərinin həyata keçirilməsinə nəzarəti təmin etmək;

3.0.20. təbii və texnogen qəzalar zamanı Nazirliyin digər struktur bölmələri ilə birlikdə zərərçəkmiş ərazilərdə, bina və qurğularda həyat təminatının təcili bərpasında iştirak etmək;

3.0.21. tikinti obyektlərinin şəhərsalma və tikintiyə dair normativ sənədlərin tələblərinə, tikinti layihələrinə uyğunluğuna dair rəy vermək;

3.0.22. tikinti obyektlərin konservasiyası ilə bağlı layihələrin təhlükəsizlik tələblərinə uyğun olması barədə rəy vermək;

3.0.23. mühəndis-axtarış, layihələndirmə və tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi, tikinti materialları və konstruksiyalarının, avadanlığın tətbiqinə aid normativ hüquqi və normativ texniki sənədlərin tələblərinə mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq bütün dövlət və özünüidarəetmə orqanları, fiziki və hüquqi şəxslər tərəfindən əməl olunmasına öz səlahiyyətləri daxilində nəzarət etmək;

3.0.24. mühəndis-axtarış və tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi zamanı aşkar olunan pozuntuların aradan qaldırılması ilə bağlı öz səlahiyyətləri daxilində qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.0.25. İdarənin fəaliyyəti ilə bağlı daxil olan ərizə və şikayətlərə baxmaq və qanunvericiliklə müəyyən edilmiş qaydada tədbirlər görmək;

3.0.26. öz səlahiyyətlərini həyata keçirərkən insan və vətəndaş hüquqlarını və azadlıqlarını təmin etmək və onların pozulmasının qarşısını almaq;

3.0.27. İdarənin kadr, maliyyə və təsərrüfat məsələlərinə aid fəaliyyətini müvafiq normativ hüquqi aktların tələblərinə, Nazirliyin müvafiq təlimatlarına uyğun təşkil etmək;

3.0.28. tikinti fəaliyyəti sahəsi ilə bağlı informasiyanın toplanması və sistemləşdirilməsini həyata keçirmək;

3.0.29. İdarənin fəaliyyət dairəsinə aid məsələlər üzrə statistik uçotu Nazirliklə razılaşdırılmış qaydada təşkil etmək;

3.0.30. İdarəyə ayrılan büdcə vəsaitlərindən, kreditlərdən, qrantlardan və digər maliyyə vəsaitlərindən səmərəli istifadə olunmasını təmin etmək;

3.0.31. İdarənin fəaliyyəti ilə bağlı dövlət sirrinin və məxfilik rejiminin qorunması üçün qanunvericiliyə uyğun zəruri mühafizə və təhlükəsizlik tədbirləri görmək;

3.0.32. müvafiq sahədə kadr hazırlığına yardımı təmin etmək, mütəxəssislərin hazırlanması və əlavə təhsili üçün tədbirlər görmək;

3.0.33. İdarə işçilərinin sosial müdafiəsini, sağlamlığının qorunmasını və onların tibbi təminatını həyata keçirmək;

3.0.34. İdarənin fəaliyyətinin təkmilləşdirilməsi istiqamətində təkliflər vermək;

3.0.35. İdarənin fəaliyyət istiqamətlərinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər vəzifələri yerinə yetirmək.

## 4. İDARƏNİN HÜQUQLARI

4.0. İdarə öz vəzifələrini yerinə yetirmək üçün aşağıdakı hüquqlara malikdir:

4.0.1. tikintidə təhlükəsizliyin təmin edilməsi sahəsində normativ hüquqi aktların hazırlanmasında iştirak etmək;

4.0.2. mühəndis-axtarış, layihələndirmə, tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi zamanı şəhərsalma və tikintiyə dair normativ sənədlərinin tələblərinə əməl olunmadıqda, bu pozuntulara yol vermiş bütün hüquqi və fiziki şəxslərə qarşı öz səlahiyyətləri daxilində qanunvericiliklə nəzərdə tutulan müvafiq tədbirləri həyata keçirmək;

4.0.3. tikinti-quraşdırma işlərinin yerinə yetirilməsi zamanı tikinti norma və qaydalarının pozulması hallarında, bu tikintilərin dayandırılması və pozuntuların aradan qaldırılması üçün öz səlahiyyətləri daxilində qanunvericiliklə nəzərdə tutulmuş müvafiq tədbirləri həyata keçirmək;

4.0.4. tikinti sahəsində dövlət standartlarına, tikinti norma və qaydalarına, texniki şərtlərə, layihələrə və digər normativ hüquqi aktlara riayət olunmasını yoxlamaq, zəruri hallarda tikinti işlərinin dayandırılmasını, qanunsuz inşa olunmuş tikinti obyektlərinin söküntüsünü və qanunvericiliklə müəyyən olunmuş sanksiyaların tətbiq edilməsini təmin etmək;

4.0.5. tikinti, yenidənqurma və əsaslı təmir obyektlərinin istismara qəbul qaydalarının pozulması və ya belə obyektlərin müəyyən olunmuş qaydada istismarına icazə alınmadan istismar edilməsi hallarında, bu pozuntulara yol vermiş şəxslərə qarşı müvafiq tədbirlərin görülməsi barədə Nazirlik qarşısında məsələ qaldırmaq;

4.0.6. İdarənin səlahiyyətlərinə aid olan məsələlər barədə məlumatları və sənədləri əldə etmək üçün yerli icra hakimiyyəti və özünüidarəetmə orqanlarına, fiziki və hüquqi şəxslərə sorğu vermək və onlardan belə məlumatları (sənədləri) almaq;

4.0.7. İdarənin səlahiyyətlərinə aid edilən məsələlərlə bağlı məhkəmədə iddiaçı və cavabdeh qismində çıxış etmək;

4.0.8. İdarənin səlahiyyətlərinə aid olan məsələlərlə bağlı qanunvericiliklə müəyyən olunmuş hallarda və qaydada müvafiq hüquq müəyyənedici digər sənədlər vermək

4.0.9. İdarəyə təqdim olunmuş layihələrə və digər sənədlərə rəy vermək, müvafiq təhlillər və ümumiləşdirmələr aparmaq, analitik materiallar hazırlamaq, fəaliyyət sahəsi üzrə tədqiqatlar aparmaq;

4.0.10. müstəqil ekspertləri və mütəxəssisləri qanunvericiliklə müəyyən edilmiş qaydada öz fəaliyyətinə cəlb etmək;

4.0.11. İdarənin işçilərinin, onların ailə üzvlərinin sağlamlığının qorunması ilə bağlı kompleks profilaktika, müalicə, sanatoriya-kurort və digər sosial müdafiə tədbirlərinin həyata keçirilməsi barədə Nazirliyə təkliflər vermək;

4.0.12. kadrların hazırlanması və əlavə təhsili ilə bağlı Nazirliyin proqramlarının həyata keçirilməsində iştirak etmək;

4.0.13. İdarənin fəaliyyət istiqamətinə uyğun olaraq qanunvericiliklə nəzərdə tutulmuş digər tədbirləri həyata keçirmək.

## 5. İDARƏNİN FƏALİYYƏTİNİN TƏŞKİLİ

5.0. İdarənin dövlət qulluqçusu olan işçilərinin maddi təminatı Azərbaycan Respublikasının müvafiq qanunvericiliyi ilə müəyyən edilmiş qaydada həyata keçirilir.

5.0.1. İdarənin dövlət qulluqçusu olmayan işçilərinin vəzifə maaşları qanunvericiliyə uyğun olaraq müəyyən edilir.

5.0.2. İdarənin strukturu və ştat cədvəli, Nazirliyin büdcədən maliyyələşdirilən işçilərinin Naxçıvan Muxtar Respublikasının Ali Məclisi sədrinin fərmanı ilə təsdiq edilən say həddi daxilində büdcədən maliyyələşdirilən işçilərinin sayı, xərclər smetası, büdcədənkənar vəsaitlər üzrə gəlirlər və xərclər smetası qanunvericiliklə müəyyən edilmiş qaydada Nazirlik tərəfindən təsdiq edilir.

5.0.3. İdarənin işçiləri Naxçıvan Muxtar Respublikanın fövqəladə hallar naziri (bundan sonra-nazir) tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilirlər.

5.0.4. İdarənin fəaliyyətinə İdarənin rəisi (bundan sonra – rəis) rəhbərlik edir. Rəis nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilir.

5.0.5. İdarəyə həvalə edilmiş vəzifələrin yerinə yetirilməsinə və hüquqların həyata keçirilməsinə görə rəis şəxsən məsuliyyət daşıyır.

5.0.6. Rəisin nazir tərəfindən vəzifəyə təyin və vəzifədən azad edilən bir müavini vardır.

5.0.7. Rəis aşağıdakı səlahiyyətlərə malikdir:

5.0.7.1. İdarənin fəaliyyətini təşkil edir və onun maliyyə-təsərrüfat fəaliyyətinə rəhbərlik edir;

5.0.7.2. İdarənin səlahiyyətlərinə aid edilən məsələlər üzrə növbəti il üçün Nazirliyin saxlanılması xərclərinin formalaşdırılması ilə bağlı təkliflər verir, fəaliyyəti ilə əlaqədar olaraq qanunvericiliklə müəyyən edilmiş mənbələr hesabına Nazirliyin büdcədənkənar vəsaitlərin

yaradılmasında iştirak edir və Nazirliyin təsdiq etdiyi gəlirlər və xərclər smetasına uyğun olaraq həmin vəsaitlərdən təyinatı üzrə istifadə olunmasını təmin edir;

5.0.7.3. İdarənin struktur bölmələrinin yaradılması, yenidən təşkili və ləğv edilməsi haqqında Nazirliyə təkliflər verir;

5.0.7.4. İdarənin fəaliyyət sahəsinə aid olan məsələlərlə bağlı normativ hüquqi aktların layihələrini müvafiq qaydada Nazirliyə təqdim edir;

5.0.7.5. İdarənin vəzifəli şəxslərinin qanunvericiliyə zidd olan əmr və göstərişlərini öz səlahiyyətləri daxilində ləğv edir;

5.0.7.6. qanunvericiliklə nəzərdə tutulan inzibati xətalara dair protokol, akt və digər sənədləri tərtib etməyə səlahiyyəti olan vəzifəli şəxslər barədə Nazirliyə təkliflər verir;

5.0.7.7. İdarənin əməkdaşlarının həvəsləndirilməsi və ya intizam məsuliyyətinə cəlb edilməsi barədə Nazirliyə təqdimat verir;

5.0.7.8. öz səlahiyyətləri daxilində İdarənin fəaliyyətinə dair əmrlər və göstərişlər verir, onların icrasına nəzarət edir;

5.0.7.9. İdarənin strukturunun təkmilləşdirilməsi, maddi-texniki bazasının möhkəmləndirilməsi barədə Nazirliyə təkliflər verir;

5.0.7.10. İdarənin struktur bölmələrinin əsasnamələrinin layihələrini hazırlamaq və təsdiq olunmaq üçün müvafiq qaydada Nazirliyə təqdim etmək;

5.0.7.11. İdarənin bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməsini təmin edir;

5.0.7.12. İdarəyə dövlət büdcəsindən ayrılmış və qanunvericiliyə zidd olmayan digər mənbələrdən əldə olunmuş maliyyə vəsaitlərini öz səlahiyyətləri daxilində idarə edir, ayrılmış vəsaitin həddi nəzərə alınmaqla, əməkdaşlarının vəzifə maaşlarına qanunvericiliklə müəyyən edilmiş məbləğdə əlavələr, maddi yardım və mükafatlar verilməsi barədə Nazirlik qarşısında məsələ qaldırır;

5.0.7.13. İdarənin maliyyə-təsərrüfat fəaliyyətinə rəhbərlik edir;

5.0.7.14. bu Əsasnamə ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməsini təmin edir və digər səlahiyyətlərə malikdir.